# DOĞMA ünvanın sakinləri



REPORTAJ

## Buzovna qəsəbəsindəki 8 nömrəli sanatoriya tipli internatdan

Bura həm səhhəti ilə bağlı problemlər yaşayan, valideyn himayəsindən məhrum olanların, həm də həssas qrupa daxil olan, təhsildən yayınan uşaqların təlim-tərbiyə məkanıdır. Müxtəlif taleli mərhəmətə sığınan uşaqlar: Kiminin valideyni ondan imtina edib, kiminin valideyni uşağına baxa bilmədiyi üçün onu bu təhsil müəssisəsinə gətirib, hansısa uşaq isə valideyn səhlənkarlığı ucbatından təhsildən kənarda qaldığından dövlət qayğısı sayəsində bu məktəbdə təhsilə cəlb olunub. Buradakı şagirdlərin öz dünyası, xəyalları var. Sözün açığı, fotoqrafımız Kənanla Xəzər rayonunun Buzovna qəsəbəsindəki 8 nömrəli sanatoriya tipli internata gələndə bilirdik ki, bizləri daha həssas uşaqlarla ünsiyyət, söhbət gözləyir. Gəlişimizin məqsədi bir günümüzü onlarla keçirmək, söhbətləşmək, şəraitləri ilə yaxından tanış olmaq idi.





**Həm müalicə, həm də təhsil alırlar**

Böyük ərazisi olan məktəbə daxil oluruq, bizi ilk qarşılayan təhsil müəssisəsinin direktoru Pəri Paşayevaya gəlişimizin məqsədini söyləyirik. Uşaqlar dərsdə olduğu üçün məktəbdə sükut hökm sürürdü. Direktor məktəb haqqında ətraflı məlumat verir. Sanatoriya tipli internat məktəbi 1962-ci ildən fəaliyyət göstərir. Əvvəllər buraya, əsasən, tənəffüs yollarının xəstəlikləri olan uşaqlar qəbul olunurdu. Həkim göstərişi olan şagirdlər internat məktəbində həm müalicə olunur, həm də təhsil alırlar. Sağlamlıqlarına qovuşduqdan sonra valideynin arzusuna müvafiq olaraq orta ümumtəhsil məktəblərində təhsillərini davam etdirə bilirlər.

Məktəbə sonradan valideyn himayəsindən məhrum, eləcə də həssas qrupa daxil olan, təhsildən yayınan uşaqların da qəbuluna başlanılıb. Təbii ki, xəstə uşaqlar burada tam izolyasiya olunur. Qeyd edək ki, internat dənizə olduqca yaxın yerləşir ki, bu da uşaqların müalicəsində xüsusi əhəmiyyət kəsb edir.

İnternat məktəbi 2 korpusdan ibarətdir. Tədris korpusunda fənn kabinetləri, sinif otaqları, kitabxana, idman və akt zalları fəaliyyət göstərir. İnternatda 306 şagird təhsil alır. Onların 100-ü qız, 206-sı oğlandır. Şagirdlərin təlim-tərbiyəsi ilə 30 müəllim, 45 tərbiyəçi-müəllim məşğul olur. Burada 1 pediatr, 1 stomatoloq və 6 tibb bacısı uşaqların sağlamlığının qayğısına qalır. Sanatoriyada həmçinin 50 texniki işçi çalışır. Digər korpusda yataqxana, yeməkxana, tibb məntəqəsi, oyun və qrup otaqları fəaliyyət göstərir. Şagirdlər gündə 4 dəfə qidalanırlar. Burada təhsil alan uşaqların əksəriyyəti yataqxanada qalır və onlara gecələr dayələr nəzarət edir. Bir sözlə, uşaqlar həm müalicə, həm də təhsil alırlar.

İnternata qəbul 5 yaşdandır və təhsil doqquzillikdir. IX sinfi bitirən uşaqlar sonradan peşə liseylərində öz arzularına müvafiq olaraq müxtəlif peşələrə yiyələnirlər.

**Heydər Əliyev Fondunun qayğısı ilə əhatə olunan məktəb**

Təhsil müəssisəsi tam dövlət təminatlıdır. Pəri Paşayeva deyir ki, şagird və müəllim kollektivi Heydər Əliyev Fondunun qayğısı ilə əhatə olunub. İnternat məktəbi Fondun "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində 2012-ci ildə əsaslı təmir edilib. Açılışda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva iştirak edib. Ümumi sahəsi 4 hektar olan məktəbin həyətində 200 tamaşaçı yeri olan stadion inşa edilib, burada idmanın müxtəlif növləri - basketbol, futbol, voleybol, tennis ilə məşğul olmaq imkanı var. Məktəbin ayrıca su anbarı var. Üçmərtəbəli yataqxanada geniş yeməkxana, yataq, istirahət, kompüter otaqları, həmçinin həkim kabineti yerləşir. Binada valideynlərin istirahəti və gecələməsi üçün də şərait yaradılıb.

Burada istər mərhəmət hissinə, qayğıya möhtac olan uşaqlar, istərsə də onların sağlamlığı, təlim-tərbiyəsi ilə məşğul olan müəllim kollektivi, həkim personalı üçün yaradılan şərait Fondun nəcib və xeyirxahlıq missiyasının təzahürüdür.

**Şagirdlərin uğurları**

İnternatda şagirdlərin bacarıqları peşəkar müəllimlər tərəfindən diqqətdə saxlanılır və inkişaf etdirilir. Direktordan öyrənirik ki, şagirdləri çox fəaldırlar, gözəl rəsm çəkmək qabiliyyətləri ilə seçilirlər. Bayram tədbirlərində maraqlı konsert proqramı ilə həm məktəb daxilində, həm də müxtəlif mərkəzlərdə uğurla çıxış edirlər.

Pəri müəllim bizə şagirdlərinin müxtəlif müsabiqələrdə, sərgilərdə aldıqları fəxri fərmanları, diplomları göstərir. Məktəbdə fəaliyyət göstərən musiqi və nitq inkişafı ilə bağlı dərnəklərə üzv olan şagirdlərin sayı kifayət qədərdir. Həmin dərnəklərdə uşaqların asudə vaxtları təşkil olunur.

Şagirdlərin daim respublika miqyaslı uşaq tədbirlərində iştirakı təmin edilir. Məsələn, ötən ilin dekabr ayında internat məktəbinin şagirdləri Heydər Əliyev Fondu tərəfindən müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqlar, eləcə də şəhid övladları üçün "Gülüstan" sarayında keçirilən Yeni il şənliyində iştirak edib, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva onları təbrik edərək hədiyyələr bağışlayıb. Bundan başqa, şagirdlər "Sea Breeze"də keçirilən möhtəşəm sirk şousunda da iştirak ediblər. Təbii ki, belə tədbirlərin sayı kifayət qədərdir.

**Polis, jurnalist, idmançı olmaq istəyənlər**

Məktəbin zəngi çalınır, dəhlizlər şagird səsləri ilə canlanır. Direktorla bədii qiraət dərnəyində məşğul olan şagirdlərin yanına gedirik. Dərnəyin rəhbəri Tamilla Alqayeva deyir ki, burada müxtəlif siniflərdə oxuyan uşaqlar var və onlar düzgün danışmağı öyrənməklə yanaşı, mütaliə ilə məşğul olmağı da çox sevirlər.

Siniflərdə qarşılaşdığımız mənzərə də duyğusal idi. Bəzi uşaqlar bizi görüb kövrəkləşir, bəziləri isə ürkək dolu baxışlarla süzürdü. Onlar bizimlə söhbət etmək, özlərini tanıtmaq istəyirlər. Günay Hüseynova 5-ci sinifdə oxuyur. Həssas qrupa daxil olan ailənin üzvüdür. Onun üçün burada təhsil almaq çox maraqlıdır. Söhbət edə bildiyi çoxlu dostları və ona təhsil verən müəllimləri var.

Kənan Babaşov 8-ci sinif şagirdidir. İdmançı olmaq istəyir. Ən çox ədəbiyyat fənnini sevir. Telnaz Abdullayeva isə jurnalist olmaq arzusundadır. Deyir ki, mərhum jurnalistlərimiz Salatın Əsgərova və Qənirə Paşayeva kimi tanınmış olmaq istəyir. Orta təhsilini tam bitirmək üçün onbirillik məktəbdə oxumağı düşünür. Elə bu zaman digər partadan bir qız ayağa durub özünü təqdim edir: "Aytac Məmmədova, 6-cı sinif şagirdiyəm. Şəmkir rayonunun Qılıncbəyli kəndindən gəlmişəm. 4 aydır ki, burada oxuyuram". Aytac "Qalx ayağa, Azərbaycan!" şeirini söyləyir və hamı onu alqışlayır.

Yanbayan otaqda 3-cülərin dərsində iştirak edirik. İbtidai sinif müəllimi Sona Qədirova şagirdlərə riyaziyyat dərsi keçir. Hamı dərsə maraqla qulaq asır, yeri gəldikcə suallara cavab verir. Dərsin qurtarmağına 5 dəqiqə qalmış biz də sualımızı veririk: "Kim riyaziyyatdan "5" alırsa, dəftərini qaldırsın". Hamı qiymətini göstərmək üçün dəftərini daha yuxarı qaldırır. Bəziləri isə onu görmədiyimizdən narahat olub bizi yanına çağıraraq dəftərini göstərir. Müəllimləri deyir ki, uşaqlar oxumağa çox həvəslidirlər. Şagirdlərdən Gülüstan Məmmədova, Məhəmməd Manafov, Yusif Rəsulov gələcək arzularını bizimlə paylaşaraq polis olmaq istədiklərini söyləyirlər. "Niyə məhz polis?", - deyə soruşuruq. Söyləyirlər ki, dünyamızı pis adamlardan, oğrulardan qorumaq istəyirik.

**Səbir, anlayış və diqqət...**

Bəs görəsən, internatda müxtəlif talelər yaşayan uşaqlara psixoloji dəstək necə göstərilir? Məktəbin psixoloqu Nigar Qasımovanın əhatəsində müxtəlif yaşlarda şagirdləri görürük. 30 il Ağdam rayon T.Məhərrəmov adına Hacıturalı kənd tam orta məktəbində psixoloq kimi çalışan Nigar Qasımova fəaliyyətini sonradan bu məktəbdə tərbiyəçi-müəllim kimi davam etdirib. Hazırda yenidən psixoloq kimi çalışır. Bu məktəbin uşaqlarını, onların ailələrini yaxından tanıdığını deyir. Psixoloq şagirdlərlə tez-tez fərdi qaydada görüşdüyünü, uşaqların adaptasiya prosesinin çox çətinliklə olsa da, sonda mümkün olduğunu bildirir. Valideynlərlə aparılan maarifləndirici söhbətlər müsbət nəticə verir. Nigar Qasımova deyir ki, onsuz da bu uşaqlar travmalıdırlar, bəziləri demək olar ki, ata-ana sevgisinin nə olduğunu belə bilmir. Bu uşaqların yeniyetməlik dövrü də çox ağrılı və çətin keçir. Onlara daha həssas yanaşmaq əsas məsələdir: "Mən bir psixoloq kimi, eləcə də müəllim həmkarlarım, bütün kollektiv onlara qarşı həssaslıq göstərir, daha şəfqətli, mərhəmətli olmağa çalışırıq. Bizim işimizdə xüsusilə 3 amilin nəzərə alınması vacib şərtdir. Sevgi, anlayış, diqqət".

Psixoloqun yanında 3 bacı diqqətimizi çəkir. Onlarla tanış oluruq. Böyük bacı Fatma Mirzəyevanın 15 yaşı var. Digər 12 yaşlı iki bacı - Gülyaz və Gülyanaq isə əkizdir. Hər üçü 3-cü sinifdə - internat məktəbinin təhsildən yayınanlar sinfində oxuyur. Qardaşları Ağaşirin Mirzəyev də bu məktəbdə təhsil alır.

**Burada təhsil aldı, həm ailə səadətini tapdı, həm də müəllim oldu**

Buranın məzunu - hazırda müəllim kimi fəaliyyət göstərən Aytac Həsənova ilə görüşürük. 2001-ci ildə bu məktəbi bitirib. Əslən şuşalı olan, köçkünlük həyatı yaşamış həmsöhbətim X-XI sinifləri Buzovna qəsəbəsində yerləşən E.Əliyev adına 234 nömrəli tam orta məktəbdə oxuyub. Gəncə Dövlət Universitetini bitirib. İxtisasca ibtidai sinif müəllimi olan Aytac Həsənova vaxtilə internatda ona dərs demiş müəlliminin oğlu ilə ailə qurub. Həyat yoldaşı da bir müddət burada idman müəllimi kimi çalışıb. İki övladı var. Deyir ki, bu məktəb ona çox doğmadır: "Burada sevimli müəllimlərim olub, xoş xatirələrim var. İnternat məktəbində oxuduğum müddətdə müəllimlərim mənə çox diqqət və həssaslıqla yanaşıblar. Yaxşı oxuduğuma görə hər zaman tərifləyirdilər. Elə onlardan sevgi gördüyümə görə müəllim olmağa qərar verdim. Başqa məktəblərdən müəllim işləmək təklifləri gəlsə də, burada işləməyi seçdim".

2006-cı ildən təhsil müəssisəsində çalışan A.Həsənova müəllimlərin sertifikatlaşdırılması prosesində 43 bal toplayıb. Əvvəl tərbiyəçi-müəllim işləyərək artıq 15 ildir ki, ibtidai sinif müəllimidir. Anası Şəmsiyyə xanım da 40 ilin Azərbaycan dili və ədəbiyyat müəllimidir. Şuşa məktəbində işləyir. Səbirsizliklə doğma yurduna - Şuşaya qayıdaraq müəllimlik fəaliyyətini orada davam etdirəcəyini gözləyir.

**Tədrisdən yataqxanaya**

Bir azdan uşaqlar günorta yeməyi üçün məktəbin digər korpusuna - yeməkxanaya gələcəkdilər. Məktəbin həyətindən yataqxanaya daxil oluruq. Yolumuzu yeməkxanaya salırıq. 12 ildir burada aşpaz işləyən Elnaz Mirzəyeva deyir ki, bu gün uşaqlar üçün menyuya uyğun olaraq düyü şorbası, kartof püresi ilə langet, salat və kompot hazırlanıb.

Direktorla həkim otağına baş çəkirik. Bir neçə şagird həkim Adilə Əliyevanın qəbuluna gəlmişdi. Kimisi tibb bacısına temperaturunu ölçdürür, kimisi isə özünü narahat hiss etdiyindən müayinədən keçmək istəyirdi. Həkim müayinəsinə gələn Aysun Bağırova 9-cu sinif şagirdidir. Anası ondan imtina edib, atası da həbsxanadadır. Əvvəllər ata nənəsinin yanında qalırdı. Sonradan nənə də ağır xəstəliyə düçar olub. Aysun 3-cü sinifdən burada oxuyur.

Aysun qarşımızda idi. Onunla birgə yataqxananı gəzməyə başladıq. Direktordan öyrənirik ki, burada təhsil alan 306 şagirdin 260-ı yataqxanada qalır. Valideynlər istədikləri vaxt gəlib uşaqlarını görə bilirlər. Hətta valideynin arzusuna müvafiq olaraq ona 1 gün uşağının yanında qalmağa şərait də yaradılır.

**Uşaqlarımıza qayğı ilə yanaşırlar**

Elə orada olarkən uşaqlarını görməyə gələn 2 valideynlə tanış oluruq. Mahirə Musayevanın oğlu Roman keçən il internat məktəbini bitirib. Qızı Ayan isə hələ burada təhsil alır, 15 yaşı var. M.Musayeva deyir ki, özü kirayədə qalır və uşaqlarını saxlamağa, onlara təhsil verməyə imkanı çatmadığından buraya üz tutub. Digər valideyn Kəmalə Xalıqovanın da oğlu Sübhan və qızı Səbinə burada təhsil alırlar. Valideynlər söyləyirlər ki, onların övladlarına qayğı ilə yanaşırlar. Təhsil müəssisəsində həm onlara təhsil verilir, həm də sağlamlıqlarına ciddi diqqət olunur.

**Həyat eşqi, gələcəyə inam, ümid...**

Yavaş-yavaş hava qaralmağa başlayır. Uşaqların yeməkdən sonra qrup otaqlarında tərbiyəçi-müəllimlərlə dərslərini hazırlamalarının və müxtəlif məşğələlərə getmələrinin şahidi oluruq. Və nəhayət, axşam yatma vaxtına doğru tərbiyəçi-müəllimlər uşaqları gecə dayəsinə təhvil verirlər.

Beləliklə, uşaqlarla bir günümüz yekunlaşır.

Hamı ilə sağollaşıb qapıdan çıxırıq. Və əminik ki, işıqlı sabahlar bizim internat məktəbinin sakinlərinə həyat eşqi, gələcəyə inam, ümid verir. Təbii ki, bu ümidi, özünəəminliyi onlara hər zaman bizlər verməliyik. Səmimi və xeyirxah münasibətimizlə, göstərə biləcəyimiz qayğımızla.

**Samirə KƏRİMOVA**
**Foto: Kənan QAFAROV**